Sentyabrın 8-i babam telefonuma zəng edib dedi:

-Alur, anana və atana de ki, ayın 10-u Lökbatanda olsunlar!

-Niyə ki, baba? - soruşdum.

-Sentyabrın 10-u Lerik rayonuna istirahətə gedirik. Hazırlaşın!

Nəhayət ki, sentyabrın 10-u gəldi.

Səhər hələ açılmamışdı, saat 05:40-da biz Lökbatanda idik. Saat altı oldu və hamı binanın qarşısındakı avtobusa minib getdik. Saat 10 oldu və nəhayət ki, biz "Cənub" Turizim və İstirahət Mərkəzinə çatdıq.

Təbiət çox gözəl idi. Meşələr yamyaşıl görünürdü, amma yayın istisindən bəzi ağacların yarpaqlarında saralma var idi. Biz həmin istirahət günlərini çay qırağını, meşə ətrafını, dağları gəzməklə keçirdik. Meşə meyvələrini də həvəslə toplayırdıq və yeyirdik. Uşaqlar böyürtikəni çox xoşlayırdılar. Qaragilə ağacının meyvəsi də bol idi. Həm də maraqlı idi ki, ağacdan ağaca fərq vardı. Bəzi ağacların meyvəsi qapqara, digərininki qırmızı, bir başqası çəhrayı idi. Yolların kənarında qoz ağacları da vardı. Axır ki, təbiət çox səxavətli idi. Nə istəsək təbiətdən yığıb götürürdük.

Mən oraları bir az gəzdim və balaca park çatdım və dostlarım Xədicə, Minarə və Sonanı çağırdım. Getdik parkı gəzdik. İstirahətimizin 3-cü günü idi. Və bacım Alsu babama dedi ki, gedək çay boyunca gəzək. Babam razı oldu:

- Alur, dəstəni hazırla, bu dəfə çay boyunca qalxacağıq.

# "ALUR ŞƏLALƏSİ"

*təəssürat-hekayə*



Bacım Alsu çox sevindi. Elə birinci hazırlaşmağa başladı. Əlbəttə, Xədicə də, Minarə də, Sona da sevinirdilər.

İstirahət mərkəzinin yaxınlığındakı kənd Peştətük adlanırdı. Peştətükdən aşağı çay boyunca gəldik. Sağ tərəfdə meşənin içində, yuxarıda Təbrizli kəndi var idi. Orada bizə dedilər ki, bu kəndin adamları Səttarxan dövründə şahın təqibindən qaçıb gəliblər və burada yerləşiblər. Biz Təbrizli kəndi ilə üzbəüz yolun solunda dağdan gələn çay boyunca qalxdıq. Hava çox isti olsa da, çay boyunca sıx meşəlik kölgəlik yaratmışdı. Oralar çox sərin idi. Bir az yuxarıya qalxdıq. Qarşımıza çıxan bir şəlalənin ətrafında hamı dayandı. Daha heç kim irəliyə getmək istəmirdi, ancaq mən şəlalə boyunca daşların üstü ilə yuxarı qalxdım. Yuxarıda gördüm ki, daha gözəl bir mənzərə var. Çay boyunca meşənin dərinliyinə getdim. Heç bir ayaq izi yox idi. Mənə elə gəldi ki, buralara ilk dəfədir ki, mən gəlirəm. Qarşıma gözəl bir şəlalə çıxdı. Balaca dostlarım da məndən xeyli arxada olsalar da gəlirdilər.

-Uşaqlar, gəlin bir buna baxın! - deyə çağırdım. Həyəcandan neyləyəcəyimi bilmirdim. Dayım oğlu Ceyhun və mən şəlalənin başına çıxaraq, lap da dərinliyə getdik. Orada da bir gözəl mənzərə var idi. Mən öz tapdığım şəlalənin adını "Alur şəlaləsi" qoydum!



*Alur* Cəbrayılzadə -

*16.09.2019*